AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ 1930

**Təsdiq edirəm** ____________________

**“Maliyyə və audit”** kafedrasının müdiri

i.e.d., prof.Əvəz Ələkbərov
11 fevral 2025-ci il

**“Ali maliyyə menecmenti” fənni üzrə işçi tədris proqramı**

(Sillabus)

| | |
|---|---|
| **I.Fənn haqqinda məlumat** | |
| Fənnin kodu: | 00133 |
| Fənnin növü:<br>Tədris ili: | <br>2024/2025 |
| Fənnin tədris semestri: | yaz |
| Fakultə<br>Qrup | Maliyyə və mühasibat<br>MH23-1, MH-2, MH-3 |
| Kafedra | Maliyyə və audit |
| Tədris yükü<br>Kredit sayi | 30/30<br>4 |
| **II.müəllim haqqında məlumat**<br>Fənni tədris edən müəllim:<br>E-mail ünvani<br>İş telefonu: | <br>i.e.d., prof.Əvəz Ələkbərov<br>i.e.n.,dos.Tünzalə Qurbanova<br>avaz.alakbarov@unec.edu.az<br>tunzala_gurbanova@unec.edu.az<br>0(12)4924004 |
| **Tələbələr üçün qəbul vaxtlari** | I, III günlər |

**III. Fənnin təsviri:**

"Ali maliyyə menecmenti" fənni bazar iqtisadiyyatı şəraitində təsərrüfat subyektlərinin maliyyə resurslarının idarə edilməsi haqqında zəruri bilikləri verir. Bu fənn həmin subyektlərin qarşısında duran ən prioritet məsələlərdən birinin - maliyyə resurslarının səmərəli idarə olunmasının öyrənilməsini həyata keçirir.

"Ali maliyyə menecmenti" fənni Azərbaycan Respublikasında "Mühasibat" ixtisasının tədris planına bakalavr pilləsində iqtisadçı kadrların hazırlanması prosesində tədris olunan əsas fənnlərdən biridir.

"Ali maliyyə menecmenti" fənninin strukturu dövlət müəssisələrində maliyyə fəaliyyətinin səmərəli idarə edilməsi ilə bağlı məsələlərin qarşılıqlı əlaqəsi nəzərə alınmaqla qurulmuşdur. Ali maliyyə menecmentinin mahiyyəti, dövlət maliyyəsinin idarə edilməsi, Dövlətin maliyyə bazarında iştirakı və maliyyə bazarlarının dövlət tənzimlənməsi,Dövlət büdcəsi və büdcə menecmenti, Dövlət vergi menecmenti, Dövlətin monetar siyasəti və Mərkəzi bank, dövlət borcu və dövlət ehtiyatlarının idarə edilməsi və digər mövzuların tədrisi nəzərdə tutulmuşdur.

**IV. Fənnin məqsədi və vəzifələri:**

Fənnin əsas **məqsədi** müasir şəraitdə ali maliyyə menecmenti sahəsində səmərəli fəaliyyət göstərə bilən yüksəs səviyyəli ixtisaslı kadrların hazırlanmasıdır.

Fənnin tədrisi qarşısında duran **vəzifələr** aşağıdakılardır:

- Ali maliyyə menecmentinin məzmun və əhəmiyyətinin öyrənilməsi;
- Ali menecmentin informasiya bazasının, maliyyə alətlərinin, maliyyənin idarə edilməsi sisteminin öyrənilməsi;
- Dövlət maliyyəsinin idarə edilməsi sistemi və fisкal qaydaların öyrənilməsi;
- Dövlətin maliyyə bazarında iştirakı və maliyyə bazarlarının dövlət tənzimlənməsinin öyrənilməsi;
- Dövlət büdcəsi, büdcə menecmenti və və vergi menecmentinin öyrənilməsi öyrənilməsi;
- Tədiyyə balansı və onun tənzimlənməsinin öyrənilməsi;
- Ali maliyyə menecmentinin beynəlxalq aspektlərinin öyrənilməsi və s.

**V. Öyrənmənin nəticələri:**

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr:

**Bilməlidirlər:**

- ali maliyyə menecmentinin nəzəri metodoloji əsaslarını, terminologiyasını, alətlərini;
- kəmiyyət və keyfiyyət metodlarından istifadə etməklə aktivlərin qiymətləndirilməsini, investisiyalar haqqında məsləhətlərin verilməsini;

- dövlətin maliyyə riski ilə bağlı fəaliyyətin müxtəlif strategiyalarının təhlil edilərək uyğun tövsiyələr hazırlamağın idarə edilməsini;

**Bacarmalıdır:**

- Dövlət maliyyəsinin idarə edilməsinin müxtəlif yolların müəyyən edilməsi və qiymətləndirilməsini;
- Dövlət kreditinin, dövlət borcunun və dövlət ehtiyatlarının idarə edilməsində maliyyə qərarlarının qəbul edilməsində tənzimləmə, idarəetmə sahəsindəki dəyişiklikləri nəzərə almağı və zəruri tövsiyələr hazırlamağı;
- Ali menecmentin beynəlxalq aspektlərini dəyərləndirməyi.

## VI. Fənnin mühazirə mövzuları

Fənn 15 mühazirə mövzusundan ibarətdir.

Ali maliyyə menecmentinin mahiyyəti və nəzəri bazası
Dövlətin maliyyə siyasəti və ali maliyyə menecmentinin təşkilati əsasları
Dövlət maliyyəsinin idarə edilməsi sistemi və fisкal qaydalar
Dövlətin maliyyə bazarında iştirakı və maliyyə bazarlarının dövlət tənzimlənməsi
Dövlət büdcəsi və büdcə menecmenti
Dövlət vergi menecmenti
Dövlətin monetar siyasəti və Mərkəzi bank
Valyuta siyasəti və valyuta tənzimi ali maliyyə menecmenti kontekstində
Tədiyyə balansı və onun tənzimlənməsi
Dövlətin maliyyə ehtiyatlarının idarə edilməsi
Ali maliyyə menecmentinin beynəlxalq aspektləri
Dövlətin investisiya siyasəti və dövlət investisiyalarının idarə edilməsi
Dövlət kreditinin və dövlət borcunun idarə edilməsində ali maliyyə menecmentinin rolu
Dövlətin maliyyə risklərinin idarə edilməsi
Ali maliyyə menecmenti sistemində maliyyə nəzarəti və audit

## VII. Prerekvizitlər

yoxdur

## VIII. Fənnin tədris metodologiyası

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, komanda şəklində layihələrin icrası, kiçik qruplarda iş, işgüzar oyunlar, xüsusi nümunələrin (keys-stadilər) öyrənilməsi və təhlili, esse yaxud sərbəst işlərin yazılması və test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.

Bundan əlavə tədris və təlim prosesində xarici və yerli ədəbiyyatdan, habelə beynəlxalq və yerli mətbuatdan (internet resurslarından) göturulmüş məqalələrin, real

nümunələrin və xüsusi keyslərin təhlilinə, müzkirasinə və məntiqi nəticələr çıxarılmasına xüsusi diqqət ayrılacaq. Verilən biliklərin tətbiqi bacarıqlarının formalasdırılması üçün tələbələr mövzuya uyğun seçilmiş tapşırıqları həll edecəklər.

Hər bir yeni mövzunun tədrisi öncəsi tələbələr müəyyən olunmuş mətnləri və onlara təqdim edilmiş (tapşırılmış) qiraət materialları ilə tanış olmalıdırlar.

## IX. Əsas dərslik və ədəbiyyat


1. AR Vergi Məcəlləsi, Bakı,2000
2. AR Konstitusiyası
3. Büdcə sistemi haqqında qanun
4. İnvestisiya fəaliyyəti haqqında Qanun
5. İnvestisiya fəaliyyətinin hüquqi tənzimlənməsi2011
6. Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında qanun
7. Valyuta tənzimi haqqında qanun
8. Dövlət maliyyəsinin Idarə edilməsi Z.Vəliye Bakı 2023
9. Atakişiyev M.C. və b. Maliyyə menecmenti,dərs vəsaiti, Bakı,2010
10. Abbasov S.A. Maliyyə menecmentinin təşkili problemləri. Doktorluq dissertasiyasının atoreferatı, Bakı, İqtisad Universiteti, 2016
11. “Maliyyə risklərinin idarə edilməsi” Ə.Ə.Ələkbərov, T.T.Qurbanova,G.Q.Məmmədova, Ş.M.Əlicanova. Bakı 2023.
12. “Maliyyə bazarları” Ə.Ə. Ələkbərov, Z.F.Məmmədov, A.T. Hüseynova. Bakı 2020
13. Abbasov S.A. Maliyyə menecmenti: təşkili və təkmilləşdirilməsi problemləri (Monoqrafiya), Bakı “Elm və təhsil”, 2009
14. Hacıyev Ş.H., Bayramov Ə.İ. Dünya iqtisadiyyatı, dərslik, Bakı, 2012
15. Səhmdarlıq işi. Dərslik, Bakı, “İqtisad Universiteti, 2010
16. Долгих Ю.А. Бакунова Т.В. и др. Финансовый менеджмент: учебное пособие, Изд. Уральского Ун-та, 2021
17. E.M.Roqova, E.A.Tkaçenko Финансовый менеджмент. Moskva 2015


Hər bir mövzu üzrə müəllimin mühazirə mətnləri və təqdimatları elektron-kabinetə yerləşdirilir. Hər bir mövzu ilə bağlı müəllim əlavə olaraq xüsusi ədəbiyyat təklif edə bilər.

## X. Fənnin mühazirə mətnləri

Fənnin bütün mövzuları üzrə mühazirə mətnləri, müzakirə sualları və tapşırıqları, habelə müxtəlif növ məşğələ materialları elektron formatda Universitetin saytında "Virtual universitet" bölməsində (www.vu.aseu.az) yerləşdirilir.

## XI. Mövzuların məzmunu və tədris-tematik bölgüsü

**XI. Mövzunun məzmunu və tədris tematik bölgüsü**

| Həft | **Mövzuların adı** | **Mövzunun əsas məzmunu** | **Ədəbiyyat** |
|---|---|---|---|
| 1 | Ali maliyyə menecmentinin mahiyyə və nəzəri bazası. | 1.Ali maliyyə menecmentinin mahiyyəti<br>2.Maliyyə menecmentinin nəzəri-metodoloji əsasları<br>3.Dövlət maliyyəsinin idarə edilməsi<br>4.Maliyyə menecmentinin funksiyaları<br>5.Ali maliyyə menecmentin mərhələləri | Atakişiyev M.C. Maliyyə menecmenti, dərs vəsaiti, Bakı,2010 |
| 2 | Dövlətin maliyyə siyasəti və ali maliyyə menecmentinin təşkilati əsasları | Maliyyə siyasətinin mahiyyəti və vəzifələri<br>Maliyyə siyasətinin növləri<br>Fiskal siyasətin mahiyyəti və formaları<br>Fiskal siyasətin hədəfləri<br>Maliyyə Nazirliyinin təşkilati əsasları | Dövlət maliyyəsinin Idarə edilməsi Z.Vəliyev Bakı 2023 |
| 3 | Dövlət maliyyəsinin idarə edilməsi sistemi və fisкal qaydalar | 1.Dövlət (ictimai) maliyyəsinin mahiyyəti<br>2.Dövlət maliyyəsinin idarə edilməsinin əsas hədəfləri<br>3.Dövlət (ictimai) Maliyyəsinin İdarə Edilməsinin əsas prinsipləri<br>4.Dövlət (ictimai) Maliyyəsinin İdarə Edilməsinin əsas elementləri<br>5.Fiskal qaydalar | Dövlət maliyyəsinin Idarə edilməsi Z.Vəliyev Bakı 2023 |
| 4 | Dövlətin maliyyə bazarında iştirakı və maliyyə bazarlarının dövlət tənzimlənməsi | 1. Maliyyə bazarlarının mahiyyəti və təsnifatı<br>2. Maliyyə bazarlarının tipləri<br>3. Maliyyə institutlarının kapitalın cəlb edilməsi prosesində iştirakı.<br>4. Faiz dərəcəsi - kapitala təklif və tələb funksiyası kimi.<br>5. Faiz dərəcələrinin səviyyəsinə təsir edən amillər. | "Maliyyə bazarları" Ə.Ə. Ələkbərov, Z.F.Məmmədov, A.T. Hüseynova. Bakı 2020 |
| 5 | Dövlət büdcəsi və büdcə menecmenti | Büdcənin mahiyyəti haqqında nəzəri baxışlar<br>Dövlət büdcəsinin məqsədi və funksiyaları | Dövlət maliyyəsinin Idarə edilməsi Z.Vəliyev |

| | | | |
|---|---|---|---|
| | | Cəmiyyətin sosial-iqtisadi inkişafında dövlət büdcəsinin rolu.<br>Dövlətin büdcə siyasəti və onun istiqamətləri<br>Büdcə təsnifatı | Bakı 2023 |
| 6 | Dövlət vergi menecmenti | 1.Verginin mahiyyəti vergi inzibatçılığının məzmunu, forma və metodları.<br>2.Vergi inzibatçılığının prinsipləri və formalaşması amilləri.<br>3.Vergi inzibatçılığının funksiyaları<br>4.Vergi inzibatçılığının hüquqi təminatı.<br>5.Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti | Vergi Məcəlləsi<br>Vergi Inzibatçlığı Dərslik 2017 |
| 7 | Dövlətin monetar siyasəti və Mərkəzi bank | 1.Monetar siyasətin mahiyyəti<br>2.Mərkəzi Bankın fəaliyyətinin ümumi əsasları<br>3.Mərkəzi Bankın strukturu<br>4.Mərkəzi Bankın pul siyasətinin alətləri<br>5.Mərkəzi Bankın passiv əməliyyatları<br>6.Mərkəzi Bankın aktiv əməliyyatları | Azərbaycan Respublikasının Mərkəzi Ban haqqında qanun |
| 8 | Valyuta siyasəti və valyuta tənzimi ali maliyyə menecmenti kontekstində | 1.Valyutanın mahiyyəti<br>2.Valyuta siyasəti və onun növləri<br>3.Valyuta əməliyyatları və onun növləri<br>4.Valyuta tənzimlənməsi<br>5.Valyuta nəzarəti | Valyuta tənzir haqqında qanun |
| 9 | Tədiyyə balansı və onun tənzimlənməsi | Tədiyyə balansının mahiyyəti<br>Tədiyyə balansına təsir edən amillər<br>Tədiyyə balansının quruluşu<br>Tədiyyə balansının tənzimlənməsi | "Beynəlxalq valyuta kred münasibətləri v xarici ölkələr pul kredit sistemi" kitabı;Bakı-2012 |
| 10 | Dövlətin maliyyə ehtiyatlarının ida edilməsi | 1.Dövlət maliyyə ehtiyatlarının idarə edilməsinin xüsusiyyətləri<br>2. Dövlət valyuta ehtiyatlarının idarə edilməsi<br>3. Prezidentin Ehtiyat Fondunun, Azərbaycan Dövlət Neft Fondunun formalaşması və | Dövlət maliyyəsinin Idarə edilməsi Z.Vəliyev Bakı 2023 |

| | | | |
|---|---|---|---|
| | | istifadəsi siyasəti. Sosial Müdafiə Fondu, Dövlət Büdcəsinin Ehtiyat Fondu və digər büdcədənkənar fondlar | |
| 11 | Ali maliyyə menecmentinin beynəlxalq aspektləri | Beynəlxalq maliyyənin strukturu. Beynəlxalq maliyyə təşkilatları BVF, Dünya Bankı, BYİB, FATF, BİA, Beynəlxalq ödənişlər | Dövlət maliyyəsinin Idarə edilməsi Z.Vəliyev Bakı 2023 |
| 12 | Dövlətin investisiya siyasəti və dövlət investisiyalarının idarə edilməsi | Dövlətin investisiya siyasətinin istiqamətləri, funksiyaları və formaları. Dövlət əmlakının idarə edilməsi (AR dövlət əmlakının idarə edilməsinin təkmilləşdirilməsi üzrə dövlət proqramı 2007) | İnvestisiya fəaliyyəti haqqında Qanun İnvestisiya fəaliyyətinin hüquqi tənzimlənməsi 2011 |
| 13 | Dövlət kreditinin və dövlət borcunun idarə edilməsində ali maliyyə menecmentinin rolu | Dövlət krediti: mahiyyəti, funksiyaları və növləri. Xarici və daxili dövlət borcu Dövlət kreditinin məqsədləri. Beynəlxalq reytinq agentlikləri Dövlət borcu, dövlət borcunun idarə edilməsi | Dövlət maliyyəsinin Idarə edilməsi Z.Vəliyev Bakı 2023 |
| 14 | Dövlətin maliyyə risklərinin idarə edilməsi | Dövlətin maliyyə risklərinin ümumi xüsusiyyətləri Dövlətin maliyyə risk idarəetmə obyektləri Dövlətin maliyyə risklərinin təsnifatı . Dövlətin maliyyə risklərinin idarə edilməsi | “Maliyyə risklərinin ida edilməsi” Ə.Ə.Ələkbərov, T.T.Qurbanova, .Q.Məmmədova, Ş.M.Əlicanova. Bakı 2023. |
| 15 | Ali maliyyə menecmenti sistemind maliyyə nəzarəti və audit | AR Hesablama Palatası, Dövlət Maliyyə Nəzarəti Xidməti, Dövlət Sığorta Nəzarəti Xidməti, AR Prezidenti yanında Maliyyə Monitoring xidməti, AR Vergi Nəzarəti Orqanı, Valyuta nəzarəti, AR Auditor Palatası | Dövlət maliyyəsinin Idarə edilməsi Z.Vəliyev Bakı 2023 |

## XII. Seminar-məşğələlər: hazırlıq və qiymətləndirmə

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə cıxarilan hər bir sual üzrə qısa çıxış hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqları və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

Tələbənin məşğələdəki hər bir cavabı 10 ballıq sistem üzrə 0-10 bal arasında (maksimum 10 bal olmaqla) qiymətləndirilir və həmin ballar EDUMAN sistemində aşağıdakı nisbətlərdə nəzərə alınır:

- 10 bal:5 bal
- 9 bal : 4,5 bal
- 8 bal :4baI
- 7 bal:3,5bal
- 6 bal:3 bal
- 5 bal :2,5 bal
- 4bal:2bal
- 3 bal : 1,5 bal
- 2bal: I bal
- I bal:0,5 bal

Seminar balları əsasında formalaşan yekun aktivlik balı aşağıdakı düsturla müəyyən edilir.

B = (((bI +b2+b3+.".+bn)/s)*m)/l0

Burada, B - yekun aktivlik bah;
b - seminar dərslərində alınan müxtəlif ballar
s - semestr ərzində verilən cavabların sayı
m - aktivlik bahna aynlan maksimal bal;
l0 - bir seminar dərsində toplanan maksimal baldır.

Tələbə semestr ərzində cəmi 4 dəfə, hər dəfə isə 10 bal aldığı halda maksimal aktivlik balını - 20 bah toplamış olur. Bu halda nəticə sistemdə ((( 1 0+ 1 0+ 1 0+ 1 0)l 4)* 20)l 70 : 20 olaraq hesaba alınır. Maksimal bal toplaya bilməyənlər isə istədiyi halda 5-ci, 6-ct,7-ci ve s. Cavab verməklə aktivlik balı toplaya bilərlər. Bu zaman

müəllim ilkin olaraq həmin qrupda 4 dəfə cavab verməyənlərdən başlamaqla növbəlilik prinsipi əsasında tələbəyə cavab verməsi imkanı yaradır.

**XIII. Fənn üzrə kurs işi**

Fənn üzrə kurs işi nəzərdə tutulmayıb.

**XIV. Fənn üzrə ara və aralıq qiymətləndirmə**

Ara qiymətləndirmə hər bir fənn üzrə semestr ərzində maksimal 30 bal formalaşdıran və ilk 7 tədris həftəsi ərzində keçilmiş mövzular üzrə (7-ci həftə də daxil olmaqla) aparılan qiymətləndirmədir. Ara qiymətləndirmə mərkəzləşdirilmiş qaydada yazılı üsulda 8-ci və 9-cu tədris həftələri ərzində keçirilir

Yazılı üsulunda keçirilən ara qiymətləndirmə zamanı tələbəyə 3 sual, yekun qiymətləndirmə zamanı isə təhsilalanlara 5 sual təqdim olunur.

Fənn üzrə tələbələrin yekun biliyi 100 ballıq sistem üzrə qiymətləndirilir. Balların maksimum miqdarı – 100 baldır.

Yekun imtahandan sonra tələbənin fənn üzrə topladığı bütün ballar toplanır və yekun qiymət (bal) hesablanır . Fənn üzrə tələbənin əldə edə biləcəyi yekun balın strukturu aşağıdakı cədvəldə təqdim edilib:

| **İstiqamət** | **Ballar** | **Faiz** |
|---|---|---|
| Aralıq qiymətləndirmə | 50 | 50% |
| Ara qiymətləndirmə | 30 | 30% |
| Auditoriya qiymətləndirməsi | 20 | 20% |
| **Cəmi:** | 100 | 100% |

Fənn üzrə semestr ərzində (imtahana qədər və imtahanda) tələbənin topladığı balın yekun miqdarına görə onun yekun biliyi aşağıdakı kimi qiymətləndirilir:

51 baldan aşağı olduqda - “qeyri-kafi” - F
51-60 bal - “qənaətbəxş” - E
61-70 bal - “kafi” - D
71-80 bal - “yaxşı” - C
81-90 bal - “çox yaxşı” - B
91-100 bal - “əla” - A

Tələbənin topladığı yekun bal 51 baldan aşağı olduqda (yəni onun biliyi “qeyri-kafi” qiymətləndirildikdə) tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.